**Cüməgül Suvanova**
Səmərqənd şəhəri

# Azərbaycan

Zalım zamanları yenib,
Bu gün azad, Azərbaycan.
Qəlbindən çox qanlar axıb,
Bugünsə şad, Azərbaycan.

Əl-ələ verib gedirik,
Dostluğumuz görür cahan.
Bağlarına, dağlarına
Olum qurban, Azərbaycan.

Səni görmək arzusuyla,
Sənə çatdım, oldum bir can.
Adəm Atam, Mama Həvvam,
Qaş və müjgan, Azərbaycan.

Qəlbimin ən dərinində,
Ürəyimin başındasan,
Qarabağın yağılarda,
Səmavi şan, Azərbaycan.

Bir niyyətlə, bir məqsədlə,
Birləşiblər, olub bir can.
Qənimlərə baş əyməz, yox,
Qala, kurqan, Azərbaycan.

Başım balış olsun sənə,
Cürətini görsün cahan,
Aşıb-daşar mehrim yenə
Azərbaycan, Azərbaycan!

Çevirənlər: **Yaşar Qasımbəyli, filologiya elmləri doktoru**
**Almaz Ülvi (Binnətova), filologiya elmləri doktoru**